

Tanrının bəxş etdiyi möcüzələri həmişə çox uzaqda axtarmaq gərəkməz. Bəzi möcüzələr çox yaxınımızda olur. Məsələn, bəzən bir səs kifayətdir ki, ruhu silkələsin, qəlbi sevgi ilə doldursun, zamanın axarına sığmasın, onun sərhədlərini aşaraq insanı əbədiyaşar etsin. Müslüm Maqomayevin səsi də məhz belə - okean qədər geniş, ucalığı ilə göylərə tay, doğmalığı ilə torpağa sirdaş, cazibəsi ilə könüllərdə taxt quran möcüzə idi. Onun oxuduğu nəğmələr ən gözəl arzuların dastanı kimi dillər əzbəri idi. O, səhnəyə çıxanda hər kəs anlayırdı ki, qarşılarında zamanın yaddaşından heç vaxt silinməyəcək sənətkar dayanır. Opera səhnəsində oxuduğu ariyalar da, böyük şəhərlərin möhtəşəm konsert salonlarında səslənən melodiyaları da eyni həqiqəti bəyan edirdi: sənət ruhu ucaldır, insanı saflaşdırır, qəlbləri birləşdirir. Müslüm Maqomayevin səsi insan üçün həm təsəlli, həm də qürur idi. Bəzən ana laylası qədər həlim, bəzən qəhrəmanlıq dastanı qədər qüdrətli, bəzən də ürəkdən gələn sevda məktubu qədər kövrək... Məhz buna görə o, sağlığında əfsanəyə çevrilmiş, "XX əsrin Orfeyi" adlandırılmışdı. Qədim yunan ədəbiyyatında Orfey səsi ilə möcüzələr yarada bilən musiqiçi kimi tanınırdı. Müslüm də ecazkar səsi ilə milyonlara həyat sevgisi bəxş etdiyi üçün onları bir-birinə bənzətmişdilər. Bu gün onun haqqında danışarkən cümlələri keçmiş zamanda qururuq. Amma Maqomayev sənəti keçmişdə qalmayıb, səsinin susmayan əks-sədası var...

# Dünyanı səsi ilə heyran edən korifey sənətkar



Opera və estradamızın ulduzu, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev 1942-ci il avqustun 17-də Bakı şəhərində dünyaya göz açıb. Hələ uşaq yaşlarından musiqiyə sonsuz sevgisi, bağlılığı və qeyri-adi istedadı Maqomayevlər ailəsi üçün heç də təəccüblü deyildi.



Sanki bu ailədə hər kəs musiqi ilə nəfəs alırdı. Babası Müslüm Maqomayev bəstəkar, dirijor, həm də ictimai xadim kimi şöhrət qazanmışdı. Azərbaycan klassik musiqi tarixində mühüm yer tutan, operamıza "Şah İsmayıl" və "Nərgiz" kimi dəyərli əsərlər bəxş edən bəstəkar cəmi əlli bir il ömür sürmüşdü. Onun iki oğlu - Camal və Maqomed musiqini böyük sevgi ilə öyrənmişdilər. Hərçənd onlar musiqi məktəbində təhsil almamışdılar, amma Camal fortepiano və royalda, kiçik qardaşı Maqomed isə royalda peşəkar musiqiçi kimi ifa edə bilirdi. Maqomedin həm də məlahətli, cəlbedici səsi vardı, lakin o, teart rəssamı kimi çalışırdı. Həyat yoldaşı Ayşət Axmedovna isə dram aktrisası idi. Onlar Maykopda tanış olmuş, evlənərək Bakıya köçmüş, övladlarına şan-şöhrəti dünyanı gəzən babasının adını vermişdilər. Musiqini bu qədər sevən, pərəştiş edən gənc ailənin gələcəklə bağlı xoş niyyətlərini, ümidlərini müharibə puç etmişdi. İkinci Dünya müharibəsində iştirak edən Maqomed Maqomayev Sovet ordusunun qələbəsinə sayılı günlər qalmış döyüşlərdə həlak olmuşdu. Balaca Müslümün anası həyat yoldaşının qara xəbərini alanda doğulduğu və böyüdüyü Maykop şəhərinə qayıtmış, teatr fəaliyyətini davam etdirmək üçün daha sonra Vışniy Voloçekə köçmüşdü. Orada yenidən ailə qurmuş və iki övladı dünyaya gəlmişdi. Müslüm isə anasının istəyi ilə Bakıda qalmış, əmisi Camalın himayəsində böyümüşdü. Həssas, incə ruhlu uşaq olduğundan ailəsi on yaşına qədər atasının bir daha geri dönməyəcəyini ona söyləməmişdi. 1949-cu ildə onu Bakı Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbinə yazdırmışdılar. O, qayğısız, gözəl çağlarını sonralar, şöhrəti dillərdə gəzəndə tez-tez həsrətlə xatırlayırdı. Bakıda uşaqlıq və yeniyetməlik illərinin keçdiyi "Nizami" kinoteatrının yaxınlığındakı məhəllə sənətkara xüsusilə doğma idi. Həyətlərindəki dostları, ilk melodiyalarını paylaşdığı sinif yoldaşları gələcəyin məşhur müğənnisinin ilk dinləyiciləri idilər. Yaxınlarının sözlərinə görə, gənc Müslüm saatlarla Enriko Karruzonun, Mattia Baqtistini və Titta Ruffonun əsərlərini dinləyirdi. Hər gün dayısıgilin qonşuluğunda yaşayan məşhur Azərbaycan müğənnisi Bülbülün səsinə yuxudan ayılan Müslüm onun sayəsində musiqini daha çox sevməyə başlayır, həmçinin Bülbülün oğlu Poladla da dostluq edirdi. Bakı Konservatoriyasının nəzdindəki musiqi məktəbində oxuyanda Müslüm fortepiano, solfedcio və xor dərslərində ən yüksək bal toplayırdı. Vokal sinfini 1959-cu ildə yüksək qiymətlə bitirərək diplomunu almışdı. Müslüm ilk dəfə səhnəyə 14 yaşında Dənizçilər klubunda çıxış edərək addım atmışdı. On beş, on altı yaşlarında isə artıq pərəstişkarlarının sayı az deyildi, bariton səsi məktəblərdə, institutlarda, klublarda, hətta Bakı bulvarında dinlənilirdi. Müslüm Maqomayev ilk böyük uğurunu 1962-ci ildə qazanmışdı. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərdən ibarət heyətlə birlikdə Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına qatılaraq ölkəsini uğurla təmsil etmiş, medalla qayıtmışdı. Həmin dövrdə populyar "Oqonyok" jurnalı Müslümün şəklini dərc etmiş və "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalə ilə gənc Müslümün uğurunu oxuculara çatdırmışdı. Bu hadisə onun musiqi yolunda ilk böyük uğur kimi yadda qalmış və gələcək şöhrətinin təməlini qoymuşdu. Müslümün musiqi savadının formalaşmasında Aleksandr Akimoviç Milovanovun, konsertmeyster Tamara İsidorovna Kretinqenin böyük rolu olmuşdu. Hər dərs gələcəyin böyük sənətkarının yolunu işıqlandırmışdı.

1963-cü ildə Müslüm Maqomayev Kremlin Qurultaylar Sarayında keçirilən Azərbaycan İncəsənəti Festivalında səhnəyə çıxaraq geniş ictimaiyyətin diqqətini çəkmiş, ümumittifaq şöhrəti qazanmışdı. Elə həmin ildə P.İ.Çaykovski adına Konsert Zalında baş tutan ilk solo-konserti ilə gənc vokalist sənətkarlıq zirvəsinə yüksəlmiş, Azərbaycan Opera və Balet Teatrının solisti kimi təyin edilmişdi. Bir il sonra o, Avropa səhnəsində şöhrətini duyurmaq üçün iki illik təcrübə proqramına göndərilərək Milanın məşhur "La Skala" teatrında dünya musiqi irsinə töfhə verməyə başlamışdı. Enriko Pyatsa ilə birgə "Sevilya bərbəri" operasından Fiqaronun və "Toska" operasından Skarpianın mürəkkəb partiyalarını hazırlamışdı. 1966-cı ildə isə Parisdə ilk konsertini verərək beynəlxalq musiqi səhnəsində mövqeyini təsdiqləmişdi. Dünyanın əksər ölkələrində gəzərək konsertlər vermişdi. Vokalistə Parisin məşhur "Olimpiya" konsert sarayının direktoru Brüno Kokatris bir illik müqavilə təklif etmişdi. Bu təklif onun şöhrətini xeyli artıra bilərdi, lakin buna SSRİ Mədəniyyət Nazirliyi qərar verməli idi, çünki gənc azərbaycanlı vokalist dövlət konsertlərinin əvəzolunmaz ifaçısı sayılırdı. Bir dəfə Fransa səfərindən geri dönəndə müğənni SSRİ Daxili İşlər Nazirliyinə çağırılır. Ona bildirilir ki, Maqomayev konsert üçün təşkilatçılar tərəfindən artıq məbləğ alıb. Müğənnini səbəbsiz yerə çək-çevirə salırlar. Müslüm altı ay müddətinə efirdən və konsertlərdən uzaqlaşdırılır. Onu "KQB" sədri Yuri Andropov xilas edir. Sovet İttifaqında "KQB" həm daxili, həm də xarici kəşfiyyat, casusluq, təhlükəsizlik və kəşfiyyat əməliyyatlarını idarə edən əsas orqan idi. "KQB"nin yubileyi zamanı Andropov mədəniyyət naziri Furtsevaya zəng vurur və yubileydə Müslümün ifa etməsini istəyir. Halbuki, bu zaman Maqomayevə səhnəyə çıxmaq qadağan olunmuşdu. Mədəniyyət naziri Furtseva məsləni Andropovun diqqətinə çatdırır. Nazirdən müğənninin istintaqa



cəlb edildiyini eşidən "KQB" sədri Andopov bildirir: "Bizim siyahıda o, tərtəmizdir". Beləcə, Müslümə qoyulan qadağalar aradan qalxır. SSRİ-nin rəhbəri Leonid İliç Brejnev də M.Maqomayevin alovlu pərəstişkarlarından idi. Müslüm rəhbərin Azərbaycana gəlişi münasibətilə mahnı yazmışdı. Brejnev isə ən çox onun italyan partizanlarına həsr etdiyi "De la Çao" mahnısını çox sevirdi. Uğurlar ard-arda gəlirdi. 1969-cu ildə Müslüm Maqomayev Sopotda keçirilən beynəlxalq festivalın birinci mükafatına layiq görüldü, Kann Beynəlxalq Festivalında isə ona "Qızıl disk" təqdim edildi. 31 yaşında artıq o, təkcə Azərbaycanın deyil, SSRİ-nin Xalq artisti idi. 1975-ci ildə yaranan Estrada simfonik orkestrinə rəhbərlik edən Müslüm 14 il boyunca orkestri ilə yalnız SSRİ daxilində deyil, həm də xarici ölkələrdə gəzərək konsertlər verirdi. SSRİ-nin ali partiya rəhbərliyi bəyənməsə də, o, müasir Qərbdə populyarlıq qazanmağa davam edirdi. "Bitils" qrupunun "Dünən" mahnısı Maqomayevin ifasında səslənəndən sonra isə şöhrəti sərhəd tanımır, sənəti bütün dünyaya səs salırdı. Müğənni səsinin qüdrəti, vüqarlı qaməti, gözəl siması, səhnə davranışı ilə hamını valeh edirdi. Səsinin geniş diapazonu ona vokal sənətinin müxtəlif sahələrində, o cümlədən opera, estrada janrlarında, caz üslubunda uğurlu ifalara imkan verirdi. Onu əbəs yerə sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı adlandırmamışlar.

Müslüm Maqomayev bacarığını bəstəkarlıq sahəsində də müvəffəqiyyətlə sınamışdır. Onun yaradıcılığında Xalq şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan "Azərbaycan" mahnısı xüsusi yer tutur. Bu əsər xalqın qürurunu, sevgisini və vətənə bağlılığını hər notunda hiss etdirir. Müslüm Maqomayevin səsi ilə canlanan "Azərbaycan" mahnısı dinləyiciyə həm tarixi, həm də mədəni dəyərləri ötürür. Mahnının melodiyası və sözləri birləşərək Azərbaycan xalqının birlik, sevgi və ümid hisslərini simvolizə edir, hər ifada isə melodiya dinləyicinin qəlbinə yol tapır.

***Sənsən eşqim, zəfərim,***
***Çağlayan Kür, Xəzərim,***
***Günəşli al səhərim, Azərbaycan!***

Müslüm Maqomayevin sonrakı yaradıcılığı Moskva ilə bağlıdır. Rusiyanın görkəmli bəstəkarları onun üçün mahnılar yazmışlar. Lakin müğənninin repertuarından Azərbaycan musiqisi (Üzeyir Hacıbəyov - "Sənsiz", "Sevgili canan" və s.) heç vaxt əskik olmamışdır. "Azərbaycan mənim atam, Rusiya isə anamdır. Mən həyatımı Azərbaycansız təsəvvür etmirəm", - deyən müğənninin repertuarında 600-dək əsər vardı. O həm də "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" da daxil olmaqla 30 filmdə rol almışdı. 1997-ci ildə planetin Günəş sistemindəki ulduza "4980 Maqomayev" adını vermişdilər. Elə həmin il sənətkar "Şöhrət" ordeni ilə təltif edilmişdi. 1998-ci ildə Müslüm Maqomayev "Hər bir istedadın səhnədən getmək vaxtı var", - deyərək ömrünün son 10 ilini rəssamlığa həsr etmişdi. 2002-ci ildə Bakı Musiqi Akademiyasında Müslüm Maqomayevin 60 illiyinə həsr olunmuş tədbir keçirilmiş, ona Bakı Musiqi Akademiyasının fəxri professoru adı verilmişdi. 2002-ci il sentyabrın 6-da isə dünya şöhrətli sənətkar "İstiqlal" ordeni ilə təltif olunmuşdu.

Uzun illər Ümummilli Lider Heydər Əliyevlə dostluq münasibəti qurmuşdu. 2003-cü ildə Ulu Öndərin vəfatından sonra özünə qapanmışdı. Həyat yoldaşı Tamara Sinyavskayanın dediyinə görə, onun rəsm əsərləri içərisində Ulu Öndər Heydər Əliyevin, Bethovenin, Çaykovskinin, Sergey Rahmaninovun, Cüzeppe Verdinin portretləri var idi. O, portretləri çəkən zaman Tamara onu fortepianoda müşayiət edirdi. 2007-ci ildə Maqomayev Sergey Yeseninin sözlərinə özünün sonuncu "Əlvida, Bakı" mahnısını yazır.

Müslüm Maqomayev 2008-ci il oktyabrın 25-də ürək xəstəliyindən vəfat edir və Bakıda Fəxri xiyabanda dəfn olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 11 may tarixli Sərəncamına əsasən görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin 70 illik yubileyi dövlət səviyyəsində qeyd olunur. Təsadüfi deyildir ki, IV Qəbələ Beynəlxalq Musiqi Festivalının ilk konserti məhz SSRİ Xalq artisti, dünyaşöhrətli musiqiçi Müslüm Maqomayevin 70 illik yubileyinə həsr edilir. 2019-cu ildə Dnepr şəhərində küçələrdən birinə Müslüm Maqomayevin adı verilir. 17 avqust 2022-ci ildə Bakının Dənizkənarı Milli Parkında Müslüm Maqomayevin abidəsinin açılışı reallaşır. Orada iştirak edən Prezident İlham Əliyev deyib: "Müslümün öz doğma torpağına bağlı olması onun yaradıcılığında da özünü göstərib. Azərbaycana, Odlar yurduna, Xəzər dənizinə həsr edilmiş onun bəstələdiyi mahnılar nə qədər əzəmətlidirsə, o qədər də Vətənə sevgi ilə dolu olan mahnılardır. O mahnılar bu gün də yaşayır və əbədi yaşayacaq.

Biz bu mahnını Bakıda Filarmoniya zalında Müslümlə vida mərasimində eşitdik və çox təsirləndik, çox duyğulandıq. Çünki bilmirdik ki, bu mahnı yazılıb, Müslim özü onu bəstələyib. O mahnının adı "Əlvida, Bakı" idi və o anlayırdı ki, artıq Bakıya gələ bilməyəcək, ən sevimli şəhərə gələ bilməyəcək, bu küçələrdən keçə bilməyəcək, Bakıdakı dostları ilə görüşə bilməyəcək. Təsəvvür etmək çətindir ki, onun kimi həyatı sevən, onun kimi, necə deyərlər, dostlarla bir yerdə olmaq həvəsində olan adam, bax, bu vida mahnısını bəstələyir və bizimlə, şəhərlə vidalaşır. Eyni zamanda, bu, onu göstərir ki, hətta sağlamlığı o qədər də yaxşı olmayan vəziyyətdə onun istedadı, onun böyük sənətkar olması yenə də yerində idi. Müslüm bizimlədir, bu gün Bakıdadır, onun gözəl abidəsi bu gün açılacaq və Bakı heç vaxt onu unutmayacaq. Azərbaycan xalqı heç vaxt onu unutmayacaq. Onun xatirəsi onu tanıyanların qəlbində yaşayacaq, onun möhtəşəm səsi, onun sənəti əbədi yaşayacaq".

**Fidan ƏLİYEVA,**
**"Respublika".**